

Ramiz
İsmayıl

# Soruşdular: əsil nədi: kök nədi, Araz adlı bir həsrətim göynədi

## "Baş sarıtel"

Sinəmizdə şərik olub,
Bu dağları "Baş sarıtel".
Həzin-həzin nəğmə deyib,
Bulaqlara "Baş sarıtel".

Sim teldimi, tel simdimi,
Nağıldımı, tilsimdimi.
Açardımı - "Simsim"dimi,
Otaqlara "Baş sarıtel".

Tanrı verən paydı vallah,
Şəlalədi, çaydı vallah,
Sığınanda toydu vallah,
Qucaqlara "Baş sarıtel".

Dindirərsən, mehrinə bax,
Küsdürürsən, qəhrinə bax,
Od ələyər-sehrinə bax,
Ocaqlara "Baş sarıtel".

Kim bilir ki, kimindi o,
Məhəbbətə zəmindi o,
Allah yazan himndi o,
Bu dağlara "Baş sarıtel".

Süzüləndə şərbətvari,
Unudarsan sərvət, varı.
Çəkib neçə sənətkarı,
Sınaqlara "Baş sarıtel".

Gah çılğındı, gah ürkəkdi,
Təmiz vicdan, düz ürəkdi.
Gədəbəydə duz-çörəkdi,
Qonaqlara "Baş sarıtel".

Ramiz gəlib ehtizaza,
İstər sənə dastan yaza.
Qurban olum telli saza,
Barmaqlara "Baş sarıtel".

## Hələ yox

Zəmanədən gileyliyik həmişə
Taleyindən razı qalan hələ yox.
Çiynimizdə daşımışıq hər yükü,
Yük azalıb, dərd azalıb şələ yox.

Söz düzümü gövhərdimi, dürdümü?
Qanana de, qanmaza de, birdimi.
Dərd əhlinə söyləyirəm dərdimi
Deyə bilmir elə olar, belə yox.

Qar ələnib gədikləri bağlayıb,
Qara keşiş iki qəlbi dağlayıb,
Çox sevənlər "yandım" deyib ağlayıb,
Əsli yanıb, Kərəm yanıb, Lələ yox.

Soruşdular: əsil nədi: kök nədi,
Araz adlı bir həsrətim göynədi,
Dəli Ozan, qəm sazını, köklədi,
Təzənəni bəmə çəkdi, zilə yox.

Yaxşı sözü yaman yerə yozuruq,
Doğru işə pəl vururuq, pozuruq,
Sağlam yada əl tutmağa hazırıq,
Özümüzdə şikəstə yox, şilə yox.

Bəla çoxdur, ərz eləyim hansını,
Ceyran çəkir boz eşşəyin nazını,
Yazı yazan əyri yazıb yazını
Düz yazmağa kağız tapıb, qələm yox.

## Yaşadım

*İstəmədən doğuluruq,*
*Təəccüblə yaşayırıq,*
*Həsrətlə ölürük!*

*(adını bilmədiyim filosof)*

Elə mən də istəmədən doğuldum,
Həsrət çəkdim, dərd içində boğuldum,
Düşmənlərə çəpər olan oğuldum,
"Bu da belə bir ömürdü - yaşadım".

Eşq deyilən həm şərbətdi, həm zəhər,
Həm sevincdi, həm kədərdi, həm qəhər,
Ilan kimi sürünmədim birtəhər, -
"Bu da belə bir ömürdü - yaşadım".

Bu dünyadan götürmüşəm əl daha,
Misə dönüb, gğvhər daha, ləl daha,
Ay Əzrayıl, naz eləmə, gəl daha,
"Bu da belə bir ömürdü - yaşadım".

Gördüm dünya beş gün deyil, bir andı,
Kimə cənnət-misal, kimə virandı,
Ramiz, səni kim anladı, kim andı,
"Bu da belə bir ömürdü - yaşadım".

## Özümüz

Bizim bizdən güclü düşmənimiz yox,
Tayı özümüzük, babı özümüz!
Yol ötəni əziz tutduq, "can" dedik,
Açdıq yağılara qapı özümüz.

Sapand da bizimdi, daş da bizimdi,
Cəllad da bizimdi, baş da bizimdi,
Zəhər qatdığımız aş da bizimdi,
Tuluğu özümüz, qabı özümüz.

Bir həsirik, bir Məmmədnəsirik,
Boş cib ilə lovğa-lovğa gəzirik,
Ramiz, daha pambıq ilə kəsirik
Çapan baltamızın sapı özümüz!

## Bu mənim səhvimdi...

***"Məndə sığar iki cahan,***
***Mən bu cahana sığmazam"***

***Nəsimi***

Əl boyda ürəyə sığa bilmədim,
Bu mənim səhvimdi, bu mənim səhvim.
Batdım bataqlığa - çıxa bilmədim
Bu mənim səhvimdi, bu mənim səhvim.

Dizim torpaqdadı, üzüm haqdadı,
Ümid Allahadı, güman baxtadı,
Desəm ki, dünyada hər şey saxtadı,
Bu mənim səhvimdi, bu mənim səhvim.

Halallıq çörəyim, suyum, havamdı,
Dedilər bu yazıq vallah avamdı,
"Yediyim" şillənin tərsi-avandı,
Bu mənim səhvimdi, bu mənim səhvim.

Nə dostdan, nə yardan gileylənmərəm,
Nə qışdan, nə qardan gileylənmərəm,
Tora düşsəm tordan gileylənmərəm,
Bu mənim səhvimdi, bu mənim səhvim.

Dosta aparmağa çürük qozum yox,
Sübuta ehtiyac, dəlil, lüzum yox,
Günahım varsa da, üzrə üzüm yox
Bu mənim səhvimdi, bu mənim səhvim.

Kül altda közərən közə inandım,
Üzümə qımışan gözə inandım,
Ramizəm, hər "yağlı" sözə inandım,
Bu mənim səhvimdi, bu mənim səhvim.

## Doğru

Bir qərib ərəbəm, dəvəsi ölmüş
Yaşamaq, yaratmaq həvəsi ölmüş
Nə yaxşı mən fağır nənəsi ölmüş,
Üz tutdum ədəbə, ərkana doğru.
Həyat məndən ötrü yarı qorxulu,
Yarı səksəkəli, yarı yuxulu,
Yarı yolum cənnət-xəyal qoxulu
Yarı qır qazanlı məkana doğru.

Ramizəm, duyğulu bəndəyəm mən də
Ahıl vaxtı fələk saldı kəməndə,
Tər-çiçək dərdiyim çəməndə
Əyildim qurumuş tikana doğru!

## Nə fərqi var?

Ömür ötür, zaman keçir
Zaman vermir aman, keçir
Yaxşı keçir, yaman keçir
Yaşdan ötrü nə fərqi var?

Ürək parça-paradırsa,
Qan sızılır-yaradırsa,
Saç ağdırsa, qaradırsa
Başdan ötrü nə fərqi var?

Daş qayadan qopsa əgər,
Xiffətini zirvə çəkər,
Ya saray tik, ya da çəpər
Daşdan ötrü nə fərqi var?

Süz düyünü dəm almağa
Ramiz, "bığın batmaz" yağa
Nökər yedi, ya da ağa
Aşdan ötrü nə fərqi var?

## Gəl

Gözəl, sənin yolunu
Gözləyən var bizdə, gəl.
Uşaq vaxtı gəldiyin
Həmin yolla, izlə gəl.

Gəl görüşək hərdən bir,
Bir mən bilim, bir sən bil,
Çiçək dərim bir zənbil
Özün bağla dəstə gəl.

Gəl, həm sən deyən olsun,
Gəl, həm mən deyən olsun,
Qəlbim hədiyyən olsun
Tər sinəndə bəslə, gəl.

O vaxt dedim incidin
- dilin məni incidir
Ağzın badam içidir -
Dodaqların püstə, - gəl.

Demirəm sövqat gətir,
Təkcə xoş ovqat gətir,
Ramizə şəfqət gətir,
Yerin var göz üstə, - gəl.